Dörd xislət kimdə olarsa o, xalis münafiq olar, kimdə bunlardan bir xislət olarsa, onu tərk edənə qədər özündə nifaqdan bir xislət qalmış deməkdir: danışdığı zaman yalan danışar, əhd etdiyi zaman sözündə durmaz, vəd verdiyi zaman ona xilaf çıxar, düşmənçilik etdiyi zaman da ədalətsiz olar

Abdullah ibn Amrdan (Allah ondan razı olsun) rəvayət edilir ki, o, belə dedi: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: "Dörd xislət vardır ki, bunlar kimdə olarsa o, xalis münafiq sayılar. Hər kimdə bunlardan biri olarsa, onu tərk edənə qədər özündə nifaqdan bir xislət qalmış olar. Bu xislətlər bunlardır: Danışdığı zaman yalan danışar. Vəd verdikdə vədinə xilaf çıxar. Mübahisə etdikdə haqsızlıq edər. Əhd bağladıqda əhdini pozar".

[Səhih] [رواه البخاري ومسلم]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) dörd xüsusiyyət barədə xəbərdarlıq etmişdir ki, əgər müsəlmanda bunlar cəm olarsa, bu xüsusiyyətlərə görə münafiqlərə çox bənzəyər və bu, həmin xüsusiyyətlərin üstünlük təşkil etdiyi şəxslərə aiddir, lakin nadir hallarda (bu xüsusiyyətləri) olanlar, bura daxil deyildir və bu xüsusiyyətlər: Birincisi: Danışdıqda bilərəkdən yalan danışar və sözlərində doğru olmaz. İkincisi: Əhd bağlayanda ona əməl etməz və yoldaşına xəyanət edər. Üçüncüsü: Vəd verdiyi zaman vədinə xilaf çıxar, onu yerinə yetirməz. Dördüncüsü: Bir kəslə ixtilaf və mübahisə etdikdə, mübahisəsi şiddətli olar, haqqdan sapar, mübahisə etdiyi kəsi inkar etmək və batil çıxarmaqda hiyləgərlik edər, batil və yalan söz danışar. Münafiqlik, gizlətdiyi şeyin əksini izhar etməkdir və bu məna bu xüsusiyyətlərə malik olan şəxsdə mövcuddur və onun nifaqı danışdığı kəslərə, söz verdiklərinə, ona güvənənlərə, onunla mübahisə edənlərə, onunla əhd bağlayanlara qarşıdır. Yoxsa o, dində İslamını izhar edib küfrünü gizlədən münafiq deyil. Kimdə bu xüsusiyyətlərdən biri olarsa; onu tərk edənə qədər onda nifaqdan bir sifət qalar.

http://www.sunnah.global/hadeeth/az/show/66537